# İlham Əliyevin “yaşıl dünya” missiyası

COP29 sammitində dünya Azərbaycanın qlobal böhranla mübarizə modelinə şahidlik edəcək

Azərbaycanın beynəlxalq toplantılara, forumlara, konfranslara, hətta idman yarışlarına yüksək səviyyəli evsahibliyi dünya tərəfindən hər zaman təqdir edilib. Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, İslam Həmrəyliyi Oyunlarına, siyasi-iqtisadi beynəlxalq forumlara, konfranslara ən layiqli şəkildə evsahibliyi etməsi ilə nüfuzunu artıran Azərbaycan indi də COP29-a hazırlaşır.

Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq bu sahədəki təcrübə yetərlidir ki, növbəti beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirə bilək.

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bu günədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 bu vaxta qədər keçirilən tədbirlərlə müqayisəyə gəlmir. Çünki COP29 ərəfəsində 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı növbəti dəfə dünyanın diqqətini çəkəcək. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Digər tərəfdən, vaxt da o qədər çox deyil. Ona görə də Prezident İlham Əliyev dərhal bütün hazırlıq işlərinə start verməsi üçün tapşırıq verib. COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Azərbaycan Prezidentinin digər sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən, Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir. Bu da Təşkilat Komitəsinin tərkibinin bir qədər də genişləndirilməsini şərtləndirib.




Sərəncama nəzər yetirdikdə aydın şəkildə görünür ki, Təşkilat Komitəsində gender balansı tam təmin olunub ki, bu da Prezidentin qadınların cəmiyyətdəki roluna olan diqqət, etimad və hörmətinin göstəricisidir.

Ümumiyyətlə isə bu sahədə dünyada vətəndaş cəmiyyəti çox aktivdir, ona görə Təşkilat Komitəsinə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib. Bu işə onlar da öz töhfələrini verəcəklər.

COP29-da müzakirə olunacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, Təşkilat Komitəsində iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar.

Göründüyü kimi, ümumən əsas ideya Təşkilat Komitəsinin maksimum inklüzivliyinin təmin edilməsidir.

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir.

COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a evsahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb.

Qlobal miqyasda cərəyan edən proseslər ətrafında fikir mübadiləsinin aparıldığı, hazırkı mürəkkəb böhranların aradan qaldırılması yollarının müzakirə edildiyi mötəbər platforma hesab edilən COP29 Azərbaycana həm də böyük dividendlər gətirəcək.

Bu səbəbdən də hazırlıq işləri ilə bağlı ciddi göstəriş və tapşırıqlarını verən Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan bu beynəlxalq konfransı da yüksək səviyyədə keçirəcək. Bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə özünü göstərəcək və dünyada hər kəs bir daha görəcək ki, ölkəmizin gündəliyi "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli hazırda İlham Əliyevin enerji siyasətinin prioritetidir. Bakının qucaq açacağı COP29-da dünya buna bir daha şahidlik edəcək.

Ümumiyyətlə, Azərbaycan "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Bununla yanaşı, İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Bir sözlə, COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biri olduğu üçün Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya sübut edəcək. Bu sammit Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə mühüm təkan, ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına isə müsbət impuls verəcək.

**Ruslan NƏBİYEV,**
**“Qəbələ”.**

# Bizim ailəmiz türk dünyasıdır

Dövlət başçısı İlham Əliyevin qardaş Türkiyəyə rəsmi səfəri çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan ilə keçirdiyi görüşlərdə, mətbuata birgə bəyanatlarında əməkdaşlıq əlaqələrinin genişləndirilməsində əsas amillərdən olan nəqliyyat imkanlarına xüsusi diqqət yönəldildi

«Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq.» Dövlət başçısı İlham Əliyev fevralın 14-də andiçmə mərasimində ölkəmizin ayrı-ayrı sahələrdə qazandığı uğurlardan, malik olduğu imkanlardan bəhs edərək diqqəti nəqliyyat sektorunda gördüyü işlərə yönəltdi. Bildirdi ki, üstünlüyümüz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etməyimizdir. Bu, həm Xəzər dənizində, həm də dəmir yolu, avtomobil yolları, dəniz limanı infrastrukturunda özünü nümayiş etdirir. Səkkiz beynəlxalq aeroportumuz var. Doqquzuncu Laçında inşa edilir: «Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.»

Dövlət başçısı İlham Əliyev daim çıxışlarında Azərbaycanın açıq dənizə çıxışı olmadığını önə çəkərək bunun fonunda nəqliyyat mərkəzlərindən birinə çevrildiyini xüsusi qeyd edir. Andiçmə mərasimində hədəfləri açıqlayarkən bu sahədə də ötən illərdə əldə edilən müsbət nəticələrə söykənərək belə bir əminliyi ifadə etdi ki, getdikcə rolumuz artacaq, müraciətlər də çoxalacaq. Necə ki, bu gün xahişlə müraciət edirlər ki, “bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır” və sair, burada da eyni mənzərə olacaq.

Dövlət başçısı İlham Əliyevin fevralın 19-da qardaş Türkiyəyə reallaşdırdığı rəsmi səfərində də iki ölkənin nəqliyyat imkanlarına xüsusi diqqət yönəldilərək hədəflər açıqlandı. «Nəqliyyat, enerji layihələri bizim sərhədlərimizdən kənarda da artıq önəmli rol oynayır» söyləyən cənab İlham Əliyev onu da qeyd etdi ki, enerji və nəqliyyat təhlükəsizliyi bu gün dünya gündəliyinin ön sıralarında olan mövzulardır. Ticarət dövriyyəmizin sürətlə artması və rekord həddə çatması, əlbəttə ki, bizi çox sevindirir. Beş-altı il əvvəl heç yuxumuza gələ bilməzdi ki, ticarət dövriyyəsi bu dərəcədə artacaq. Ancaq bu, reallıqdır. Vaxtilə qarşıya müştərək hədəflər qoyduq və indi bu hədəflərə doğru gedirik. Cənab İlham Əliyev bu çağırışı da etdi ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmaq üçün bu ilin ortalarında tam istismara verilməlidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan «Kritik meydan oxumaların yaşandığı bir dövrdə ölkələrimizin nəqliyyat və enerji sahələrindəki potensialını inkişaf etdirməli olduğumuz aşkardır» söyləyərək bildirdi ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti əsasən bunun ən konkret nümunələrindəndir. Bu xətdən ən yüksək səmərə götürmək üçün bərpa işləri sürətlə başa çatdırılmalıdır. Ötən ilin sentyabrında “Türk qapısı” Naxçıvana səfər zamanı Prezident İlham Əliyev ilə birlikdə Qars-Naxçıvan dəmir yolu layihəsi ilə bağlı niyyət protokolunun imzalanması da bu məqsədə xidmət edir.

Göründüyü kimi, Azərbaycanın hansı nəqliyyat imkanlarına malik olduğu açıqlanmaqla yanaşı, bunun əməkdaşlığın coğrafiyasının genişlənməsinə təsir imkanları diqqətdən kənarda qalmır. Əvvəldə də haqqında bəhs etdiyimiz, dünyanın 100 möhtəşəm layihəsi siyahısına daxil edilən, Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən neft- qaz kəmərlərindən sonra qitələri birləşdirən önəmli layihə kimi dünya birliyinin diqqətini cəlb edən Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirdi. Təkcə Azərbaycan deyil, bölgə dövlətləri üçün siyasi, iqtisadi, strateji baxımdan böyük əhəmiyyət daşıyan, Çindən başlayaraq Londona qədər uzanan BTQ dəmir yolu vasitəsilə Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanları yaranır. Diqqətçəkən məqam odur ki, əvvəlki neft-qaz layihələrinin gerçəkləşməsində beynəlxalq maliyyə təşkilatlarının dəstəyindən istifadə edən təşəbbüskar dövlətlər böyük geosiyasi inqilab adlandırılan BTQ-nin çəkilişini yalnız öz vəsaitləri hesabına reallaşdırdılar. Bu sahədə Azərbaycanın rolu daha böyükdür.

Xəzər hövzəsindəki karbohidrogen ehtiyatlarını dünya bazarına çıxaran Azərbaycan yükdaşımalarının təminatında da logistik mərkəz rolunu oynamaqla regional əhəmiyyətini artırır. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Qars, Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizlərin, eləcə də Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu kimi layihələr təkcə iqtisadi səmərəsi ilə deyil, ölkələrarası əməkdaşlığın genişləndirilməsi baxımından da diqqət çəkir. Reallaşan hər bir layihə isə respublikamızın dünya birliyində siyasi, iqtisadi əhəmiyyətini artırmaqla, enerji və nəqliyyat təhlükəsizliyinin təminatındakı rolunun əvəzedilməzliyini göstərir.

Azərbaycanın təşəbbüsü ilə reallaşan, gəlir gətirən layihələr həm də başqa ölkələrin iqtisadi inkişafı üçün əlavə imkanlar yaradır. Dövlət başçısı İlham Əliyev daim bu çağırışı edir ki, uzunmüddətli investisiyalara gəldikdə əsas məqsəd elə bir infrastrukturun yaradılmasıdır ki, o, uzun zaman ərzində fəaliyyət göstərsin və ölkəni dəyişmiş olsun, dünyanın ölkəyə münasibətini dəyişmiş olsun. Çünki bu infrastruktur layihələri olmadan Azərbaycanın coğrafi mövqeyinin bir o qədər də böyük mənası yoxdur. Biz ölkələri və insanları birləşdirməyə nail olmuşuq. Nəqliyyatla bağlı infrastruktur layihələri regionumuzda tamamilə yeni siyasi vəziyyət yaradır.

Təkcə ikitərəfli yox, çoxtərəfli formatda da Xəzər dənizi vasitəsilə qitələrin birləşdirilməsi, Bakıda dəniz limanının tikintisi, dəmir yolu sisteminin Avropa strukturları ilə birləşməsi yeni əməkdaşlıq formatını yaradır. Əvvəldə də qeyd etdiyimiz kimi, əsas hədəf Azərbaycanda müasir infrastruktur yaratmaq və ölkəni müasirləşdirməkdir.

(Ardı 6-cı səhifədə).